# "Xəzər dənizinin ecazkar səsi"

**Sevda Ələkbərzadənin sədaları Almaniyadan gəlir**

Yerli şou-biznesdə Sevda Ələkbərzadəni iddialı müğənni kimi tanıyırlar. Yəqin elə bunun nəticəsidir ki, müğənni Azərbaycandan kənara çıxaraq yaradıcılığını və sənətini artıq xaricdə nümayiş etdirir. Bu yaxınlarda əməkdar artist adını alan müğənni xaricdə "Xəzər dənizinin ecazkar səsi" titulunu qazanıb. Dünən jurnalistləri başına yığıb mətbuat konfransı keçirən müğənni "Gül açdı" (A Flover in Bloom) adlı xaricdə işıq üzü görmüş ilk albomunu təqdim etdi. Qeyd edək ki, bu ilin aprel ayında müğənni Avropanın etnik musiqi üzrə ixtisaslaşan məşhur "Netvork Medien" səsyazma studiyası ilə üç il müddətinə kontrakt bağlayıb. "Gül açdı" albomu da həmin studiyanın köməkliyi ilə ərsəyə gəlib. Xaricdə həyata keçirdiyi yaradıcılıq işləri ilə bağlı bütün hüquqların Almaniya şirkətinə məxsus olduğunu deyən müğənni bildirdi ki, həmin şirkət onun 2008-ci ilin sonu - 2009-cu ilin əvvəllərində daha yeni bir albomunu buraxacaq. Bu isə o deməkdir ki, Sevda Ələkbərzadə 35 ölkədə populyarlaşacaq. Xatırladaq ki, "Gül açdı" albomuna 11 əsər daxildir. Həmin əsərlər vaxtilə böyük uğur qazanmış "Şəbi Hicran" albomuna da daxil edilib. Hazırda albomda yer alan "Mən səni araram", "Əlvida", "Mahur", "Lo-Lo" əsərləri və s. yeni aranjiman olunub. Lakin 15 mindən çox tirajı olan bu albom Azərbaycanda satılmayacaq. Bunu isə Sevda Ələkbərzadə bütün Avropada öz satış bazarı olan "Netvork Medien" şirkətinin əhatə etdiyi ölkələr sırasına Azərbaycanın daxil olmaması ilə izah etdi. Bu arada planlarından söhbət açan müğənni qeyd etdi ki, Türkiyədə yeni bir albom hazırlamaq üçün həmin ölkənin "Yeni dünya" şirkətindən təklif alıb və bununla yanaşı onun türk kanallarında çıxışı da gözlənilir. 2008-ci ildə isə xarici ölkələrə - Almaniya, Avstraliya, Fransa, Yaponiya və s. turneyə çıxacağını söyləyən Sevda Ələkbərzadə hazırda bacısı Emma Ələkbərzadə ilə birgə ifa etdikləri duetə klip çəkdirməyi planlaşdırır.